# 90 yaşlı təhsil ocağı



Şəki ölkəmizin şimal-qərb bölgəsində yerləşən ən qədim yaşayış məskənlərindəndir. Gözəl təbiəti, əsrarəngiz gözəlliyi, müxtəlif dövrlərin yadigarları olan saysız-hesabsız tarixi abidələri, tikililəri Şəkini bu gün dünyaya tanıtmaqdadır.

Cari il iyul ayının 9-da isə UNESCO-nun Ümumdünya irs komitəsinin qərarı ilə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESCO-nun Ümumdünya İrs siyahısına daxil edilməsi ölkəmizin tarixində ən əlamətdar hadisələrdən biri olmuşdur. Bu münasibətlə ölkə başçısı cənab İlham Əliyevin Azərbaycan xalqına təbrikində deyilir: "Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaralar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur".

Bu əlamətdar hadisənin xüsusi önəm daşıdığını vurğulayan ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təbrikində isə qeyd olunur ki, "Azərbaycan xalqı milli mədəniyyətimizin, adət-ənənələrimizin tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünyaya tanıtdırılması istiqamətində böyük nailiyyətlər əldə edib. Bu gün isə biz Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya İrs siyahısına salınmasını qeyd edirik".

Qürurverici bu hadisə dövlətimizin rəhbərinin apardığı qlobal siyasətin parlaq təzahürü kimi qiymətləndirilməlidir.

Şəkidə tarixlərə şahidlik etmiş təhsil ocaqları yetərincədir. Onlardan biri də haqqında söhbət açmaq istədiyimiz 8 saylı beynəlmiləl tam orta məktəbdir. Məktəbin direktoru. "Tərəqqi" medallı qabaqcıl təhsil işçisi Səttar Ələsgərli bu təhsil ocağının uğurları, keçdiyi tarixi yol barədə məlumat verərkən bildirdi ki, 1929-cu ildən Rus məktəbi kimi fəaliyyətə başlayan məktəbə 1988-ci ildə şagird sıxlığı yarandığı üşün yeni bina tikilmişdir. 2013-cü ildə həmin bina əsaslı təmir edilmişdir. 1992-ci ilin sentyabr ayından beynəlmiləl orta məktəb statusu almışdır. Tədris rus və Azərbaycan dillərində aparılır. Əsas xarici dil ingilis dili olmaqla II xarici dil rus bölməsində fransız dili, Azərbaycan bölməsində isə rus dili tədris edilir.

2019-2020-ci tədris ilində məktəbimizdə 52 sinif fəaliyyət göstərir. Onlardan Azərbaycan bölməsində I-XI siniflərdə 21 sinif olmaqla 480 şagird, rus bölməsində I-XI siniflərdə 31 sinif olmaqla 830 şagird (cəmi 1310) təhsil alır. Bundan əlavə, hazırlıq qruplarında 37 Azərbaycan bölməsində, 90 şagird isə rus bölməsində təhsil alır.

Məktəbimizdə 99 nəfər müəllim işləyir ki, onlardan 74 nəfəri ali təhsilli, 25-i isə orta ixtisas təhsillidir.

2014-cü ildə "İlin ən yaxşı məktəbi" müsabiqəsinin qalibi olmuşdur. Həmin ildə məktəbin ingilis dili müəllimi Əliyeva Ülkər Rafiq qızı "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür.

Son beş il müddətində məktəbimizin məzunlarından 5 nəfəri Qızıl medala layiq görülmüşlər.

Həmin illərdə məktəbimizin şagirdləri Ramazanov Turab Rəcəb oğlu Respublika fənn olimpiadasının fizika fənnindən qalibi olmuş, Mustafazadə Mehin İlqar qızı Rus dili fənnindən Beynəlxalq Olimpiadanın qalibi olmuş, Əzizova Sevin İlqar qızı Azərbaycan dili fənnindən Respublika Olimpiadasının qalibi olmuşdur. İsmayılov Elsevər Elçin oğlu 16 yaşlılar arasında riyaziyyat fənnindən Beynəlxalq Balkan Olimpiadasında IV yeri tutmuşlar.

Məktəbin riyaziyyat müəllimi Aydın Məmmədov respublika müsabiqəsinin qalibi olmuşdur.



Şagirdlərin hüquqi biliklərinin artırılması və buna marağın aşılanması məqsədilə məktəbimizdə hüquq-mühafizə orqanlarının əməkdaşlarının iştirakı ilə müntəzəm görüşlər keçirilmiş, neqativ hallara yol verilməsinin qarşısını almaq məqsədilə yuxarı sinif şagirdləri ilə geniş izahat işləri aparılmışdır. 19 dekabr 2018-ci il tarixdə keçirilən "İnsan alverinin qurbanları: Səbəb və nəticələr" mövzusunda konfransda 25 nəfər yuxarı sinif şagirdi, şagird parlamentinin sədrlərindən 15 nəfər iştirak etmişdir. Bu sahədə aparılan məqsədyönlü fəaliyyətin nəticəsidir ki, rayonumuzun məktəbliləri Azərbaycan Ali Məhkəməsi xətti ilə keçirilən hüquq olimpiadasında zonada layiqli nəticələr göstərmişdir. Həmin olimpiadada şagirdimiz 100 sualın hər birini doğru cavablandırmışdır.

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi" ilə əlaqədar Təhsil Nazirliyinin 08.02.2018-ci il tarixli F-109 nömrəli əmrinə əsasən həmin yubileyin keçirilməsi ilə bağlı təhsil şöbəsinin də Fəaliyyət Planı hazırlanmış və onun icrası diqqət mərkəzində saxlanmışdır. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən orta ümumtəhsil məktəblərinin şagirdləri arasında "Cümhuriyyət 100 il" vətənpərvərlik mövzusunda keçirilən rəsm müsabiqəsində 8 saylı beynəlmiləl tam orta məktəbin uğurları yetərincə olmuşdur.

Müəllimlərə göstərilən əməli-metodiki köməkliyin keyfiyyətini yaxşılaşdırmaq və qabaqcıl üsulları aşkar edərək təbliğ etmək məqsədilə Rayon Təhsil Şöbəsinin metodistlərinin iştirakı ilə tədris ili ərzində dəfələrlə qabaqcıl fənn müəllimlərinin açıq dərsləri keçirilmişdir.

Valideynlərlə iş həmişə diqqət mərkəzində saxlanılmışdır. Uzun illərin təcrübəsi göstərir ki, məktəblə valideyn arasında qurulan, sağlam, pedaqoji baxımdan düzgün iş birliyi təhsildə daha böyük uğurların qazanılmasında önəmli rol oynayır.

Bu sahədə qabaqcıl iş təcrübəsinin daim diqqətdə saxlanılması araşdırmaların aparılması, yekun, müsbət nəticələrin müzakirəyə çıxarılması öz müsbət bəhrəsini verir. Vətəndaşların həm yazılı, həm də şifahi müraciətlərinə vaxtında baxılmış, onlara qanunçuluğun tələblərinə uyğun cavab verilmiş, yuxarı orqanlardan daxil olmuş məktubların tələbləri həll olunaraq vaxtında cavablandırılmışdır.

Başlıca vəzifəmiz Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2019-2020-ci dərs ilində "Ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri barədə" 14 avqust 2018-ci il tarixli, F-550 nömrəli əmrində və " Müasir dövrdə ümumtəhsil məktəb şagirdlərinin tərbiyə olunma sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 15 yanvar 2019-cu il tarixli, F-18 nömrəli əmri ilə təsdiq olunmuş Fəaliyyət Planında müəyyən olunmuş hədəflərin yerinə yetirilməsi üzrə işlərin davam etdirilməsi və əlavə tədbirlər haqqında 30.08.2019-cu il tarixli F-531 nömrəli əmrin tələblərinin icrasını təmin etməkdir. Həmin əmrin tələbləri məktəb rəhbərlərinin və ayrı-ayrı fənn müəllimlərinin bölməsində geniş müzakirə edilmişdir.

Dərs ili ərəfəsində əqli və fiziki cəhətdən sağlam uşaqlarla bərabər xüsusi təhsilə cəlb olunan uşaqların müəyyənləşdirilərək onları təhsilə cəlb etmək, xarici dillərin tədrisi keyfiyyətinin yüksəldilməsinə nail olmaq, ibtidai siniflərdə şagirdlərin oxu, yazı və riyazi vərdişlərinin möhkəmləndirilməsi də pedaqoji kollektivimizin qarşısında duran ən ümdə vəzifələrdəndir.

Yeni tədris ilində də məktəbimizin tarixi kemişinə, parlaq təhsil uğurlarına layiq işləmək, dövlətimizin diqqət və qayğısına əməli işləri ilə cavab vermək əzmindəyik.

Sonda bütün həmkarlarımızı yeni tədris ili ilə əlaqədar təbrik edir, onlara ən xoş arzularımızı bildiririk.

**Söhbəti yazdı:**
**İlham PƏNAHOV,**
**"Respublika".**